*Aytən Hacıyeva. XIX əsr Azərbaycan ədəbi mühitində təriqət məclisləri // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.54-61.*

UOT: 82.0

**Aytən Hacıyeva**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti,*
*Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.*
*a.haciyevaa@mail.ru*

# XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİNDƏ TƏRİQƏT MƏCLİSLƏRİ

**Açar sözlər:** *təriqət məclisləri, Qarabağ ədəbi mühiti, təsəvvüf, Seyid Nigari, nəqşbəndilik.*
**Ключевые слова:** *религиозные меджлисы, Карабахская литературная среда, суфизм.*
**Key words:** *sect meetings, Karabakh literary environment, sufism, Seyid Nigari, Naqshbandilik.*

*XIX əsr Azərbaycan ədəbiyyatı zəngin ədəbi-fəlsəfi və mədəni irsə, çoxəsrlik ənənələrə söykənməklə yanaşı, bu mənəvi mirasa fərqli yanaşma, yeni baxış bucağı, bəzi təmayüllərin yenidən canlandırılması dövrü kimi də səciyyələndirilə bilər. Bu dövrdə tarixən şərq coğrafiyasında geniş yayılmış bir sıra fəlsəfi baxışların, eləcə də təsəvvüfün əsas fəlsəfi problemlərinin,vəhdət əl-vücud təliminə əsaslanan fikirlərin yeni nəfəs qazanması diqqəti cəlb edən məqamlardandır.*

İrfan məktəbini insanın öz Allahına, iradə və qeyrətinə sığınaraq özünə, əslinə və kökünə qayıdış yolu adlandıran N.Göyüşov yazır ki, "Quran və irfan məktəbi ümumbəşəri oyanış, dirçəliş və kamillik təlimidir. Bu təlimin əqli-mənəvi dəyərləri bəşər övladını nəfsi qaranlıqdan mənəvi işıqlanmaya, cəhalətdən elm və mərifətə, fəsaddan paklığa, zəlalətdən şərafətə, rəzalətdən fəzilətə, küfr və allahsızlıqdan iman və dəyanətə, haqsızlıqdan ədalətə, düşmənçilik və ayrıseçkilikdən barış və anlaşmaya, zahiri parıltıdan batini zənginliyə, naqislikdən kamala, xaosdan ahəngdar düzənə, quru təəssübdən qəlb imanına, məkr və riyadan ixlasa, azğınlıqdan hidayətə, əqli vəsvəsədən pak vicdan qayəsinə, şərdən xeyirə, batil və məcazdan haqq və həqiqətə doğru yönəldir" (1, s. 21). Maddi (dar əl-fəna) və mənəvi (da əl-bəqa) olmaqla iki dünyanın mövcudluğunu qəbul edən sufizm məhz bu mənəvi yüksəlişə çatmanı qarşıya məqsəd qoyur. Məqsəd "fəna"dır – Allaha qovuşaraq onda əriməkdir. Kamil insan mərtəbəsinə yüksəlmək isə təbii ki, nəfs üzərində qələbə sayəsində mümkün ola bilər.

IX-X əsrlərdən yayılmağa başlayan sufi cərəyanları Azərbaycan mədəniyyətində, o cümlədən ədəbiyyatında dərin iz buraxmışdır. Sührəverdilik, zahidilik, səfəvilik, xəlvətilik, rövşənilik, gülşənilik və nəqşibəndiliyin Qafqaz qolu məhz Azərbaycan ərazisində - onun müxtəlif bölgələrində inkişaf edərək yaxın-uzaq ölkələrə yayılmış, təbliğ olunmuşdur. XIX əsr Azərbaycan təsəvvüf tarixində yeni mərhələ hesab olunur. "Azərbaycan nəqşibəndiliyinin ikinci mərhələsi olan ... bu dövrdə Şəkidə Məhəmməd Əmin Oxudi və Abdülqəni Nuxəvi ilə, Kürdəmirdə İsmayıl Şirvani və onun davamçılarının fəaliyyətləri ilə, Qəbələdə Yəhya Qutqaşini ilə, Quba və Dəvəçi tərəflərində İbrahim və Abdulvahab əfəndilər ilə Nəqşibəndilik təriqəti Azərbaycandan başlayaraq bütün Qafqaza və Anadoluya yayılan böyük bir təsəvvüfi və siyasi hərəkat olaraq ortaya çıxmışdır" (2, s.56). XIX əsr Azərbaycanın ictimai-siyasi həya-

tında qeyri-sabit dövr –Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı dövrü kimi səciyyələndiyindən mövcud durum həyatın bütün sahələrinə, eləcə də ədəbi mühitə təsir göstərmişdir. Məhz bu dövrdə fəlsəfi əsaslara söykənən təriqət təmayüllərinin müxtəlif çalarlar qazanaraq həm ictimai-siyasi yöndə, həm də ədəbi istiqamət kimi geniş vüsət alması mühitin tələbindən doğan proses idi. "Nəqşibəndilik Qafqaz xalqlarının ruslara qarşı mücadiləsində ehtiyac hiss etdikləri mənəvi enerjini və siyasi nüfuzun artmasını təmin etmişdir"(2, s.57). Bu hərəkat bütövlükdə region üçün aktual olduğundan eyni hadisələr digər xalqların həyatında, eləcə də ədəbiyyatında müşahidə olunurdu. Bir çox hallarda hadisələr əlaqəli şəkildə cərəyan edir, bir regionda yetişən hərəkat digərinə "ötürülürdü". "Dağıstanda bu mücadilənin rəhbərləri olan Qazı Məhəmməd, İmam Şamil kimi şəxsiyyətlər apardıqları hürriyyət mücadilələrini rusların yüksək hərbi qüvvələrinə və texnikalarına qarşı təsəvvüfün mənəvi gücündən istifadə etməklə uzun müddət uğurla davam etdirmişdilər" (2, s.57). Odur ki, Sovet dövründə təriqət ədəbiyyatının "mürtəce ictimai qüvvələrdən qida alan" "mühafizəkar dini mülkədar ədəbiyyatının" bir qolu kimi təqdim olunması (3, s.63) heç də təsadüfi deyildi. Qeyd olunurdu ki, təriqətçilik "Azərbaycan xalqının həyatından doğmamış, xaricdən gələn təsirin nəticəsində yaranmışdı" (3, s.64). Məhz bu yanaşma uzun illər Azərbaycan ədəbiyyatının – eləcə də XIX əsr ədəbi nümunələrinin zəngin fəlsəfi incəlikləri baxımından tədqiqatdan kənarda qalmasına səbəb olmuş, bu istiqamət yadelement, mənfi təmayül kimi dəyərləndirilmişdir: "Mücərrəd ilahi eşqi tərənnüm edən, ictimai məzmundan məhrum olan formalist şeir, qəzəl nəzirəçiliyi, təziyədarlıqla əlaqədar yaranan mərsiyə ədəbiyyatı və mistika yayan təriqət şeiri xalqın qabaqcıl meyillərilə bağlı olan maarifçi, realist və satirik ədəbi cərəyanlara, habelə şifahi xalq şeirinə qarşı bir əks cəbhə kimi meydana çıxmışdı. Mühafizəkar, dini-mülkədar ədəbiyyatı əsrin sonunda realizmin qələbəsi nəticəsində tədriclə ədəbiyyat aləmindən silinib gedirdi" (3, s.64).Qeyd olunan dövrdə Azərbaycanda təriqət şeirinin ən böyük nümayəndəsi Mir Həmzə Əfəndi Seyid Nigari Rusiya dövləti tərəfindən siyasi təqibə məruz qalmışdı. XIX əsrdə Azərbaycanda yaranan təriqət ədəbiyyatı ictimai hadisə olduğundan təriqətçiliyə qarşı kəskin təbliğat aparılırdı.

Bəzi faktlar XIX əsrdə Qarabağ ədəbi mühitində "Məclisi-üns" və "Məclisi-fəramuşan"la yanaşı, bu vaxtadək müəyyən səbəblərdən diqqətdən və tədqiqatdan kənarda qalmış digər bir məclisdən – təriqət məclisindən danışmağın mümkünlüyü ehtimalını qüvvətləndirir: "Bu dövrdə təriqət ədəbiyyatının nümayəndələri də xüsusi məclislər təşkil edir, öz ətrafına tərəfdarlar toplayırdılar. XIX əsrin əvvəllərində Hacı Mir Həmzə Seyid Nigarinin şagirdləri xüsusi məclislər düzəldərək öz ustadlarının şeirlərini oxuyub öyrənirdilər. "Nigarinin şeir və qəzəlləri onun müridləri arasında mütədavül olub, əzbərdən öz məclislərində cəzm olunana qədər oxunurdu" (4, s.19). Zəngin bədii irsi, dərin fəlsəfi mahiyyət kəsb edən lirikası ilə XIX əsr ədəbiyyatında və ictimai-fəlsəfi fikir tarixində iz qoymuş şairlərdən olan Seyid Mirhəmzə Nigari Şeyx İsmayıl Siracəddin Şirvaninin Azərbaycan və Dağıstanda yetirdiyi müridlərdən biri idi. "Həzrəti pir" kimi anılan Seyid Mirhəmzə Nigaritəkkə-təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, nəqşibəndi təriqətinin nüfuzlu şeyxidir. Sovet dövründə adları xüsusi olaraq yasaqlanan şairlərdən olan Seyid Mirhəmzə Nigari şeirlərini əsasən "Seyid Nigari" təxəllüsü ilə yazmış və bu imza ilə də tanınmışdır. Amma Türkiyədəki yazılı qaynaqlar onun Qarabaği təxəllüsü ilə də yazdığını göstərir (5).

Müasir dövrdə də bir çox müsəlmanın dünyagörüşünün əsasını və həyat tərzini müəyyən edən təsəvvüf təfəkkürdə yüksək məqama yetişməyin, eləcə də İslam həyatının və mədəniyyətimizin bir parçasıdır. Zahidlik, mənəviyyatın kamilləşməsi naminə asketizm, dünyadan üz çevirib Allaha yönəlmə, Allah sevgisinə mane olacaq şeyləri qəlbdən çıxardaraq qəlbi Allaha yönləndirmə sufilərin həyat tərzinə çevrilir."Nəqşibəndilər zikrə çox böyük önəm verir və saatlarla, günlərlə zikrlə məşğul olurdular" (6, s. 16). Təsəvvüfdə zikr məqsədə çatmaq yolunda mühüm vasitələrdən hesab olunduğundan "əl karda, könül Yarda" ifadəsi geniş yayılmışdı. Hər hansı işlə məşğul olarkən belə, insan Haqqın zikrindən başqa bir şeyi hiss etməmə-

lidir. Mürşidi İsmayıl Əfəndinin göstərişi ilə Gümüşlü Saracxanə mədrəsəsində xəlvətə çəkilmiş Seyid Nigari də bu mənəvi saflığın, yüksəlişin axtarışında idi. “Hümayi- ərş” kitabında Seyid Nigarinin farsca divanından verilmiş əlyazma nümunələrində də buna işarə edilir:

این کنج عزلتی که گرفته ست شیخ شهر
ترسم که بگویند کمینگاه شهرتست
*Bizim şeyx tək tənha bir küncdə oturur*
*Qorxum budur ki deyələr şöhrət axtarır (11, s.497).*

Seyid Nigarinin şeirlərində kamil iman və təsəvvüfdən gələn təvazökarlıq xüsusi cizgi kimi diqqəti cəlb edir:

ألهيلاتعذبنيفإني
مقرٌّبالذيقدكانمني
فماليحيلةًإلارجائي
لعفوكفأحططالأوزارعني
فلكممنزلةٍليفيالبرايا
وأنتعليَذوفضلوَمنَ
إنفكرتُفيندميعليها
عضضتأناامليوقرعتُسني
يظنالناسُبيخيراوإني
لشرالناسإنلمتعفعني

*Ya rəbbi, məni əzablandırma,çünki mən*
*Özüm də olan hər şeyi iqrarediciyəm.*
*Mənim üçün əfvini diləməkdən və sübhanilütfünə*
*Ümid etməkdən başqa bir çarə qalmamışdır.*
*Mənim bir çox xətalarım vardır ki,*
*Yadıma duşdukcə barmaqlarımı dişimə götürmüş,*
*çeynəmiş və dişlərimi qırmışam.*
*Hamı məni insanların xeyirlisi zənn edir, halbuki, mən*
*Subhani əfvinizə məzhər olmazsam insanların ən bəd əməliyəm (11, s. 497).*

Firidun bəy Köçərli “Azərbaycan ədəbiyyatı” kitabında Seyid Nigarinin şeirlərini təqdim və təhlil edərək yazır: “Bu gözəl şeirlər Mirhəmzə əfəndinin alitəb və hürriyətpərəst olmağına şəhadətedici xoşməzmun bir əsərdir” (7, s.142-149). Diqqət çəkən digər məqam şairin ustad-tələbə, mürşid-mürid münasibətləri, haqq, halallıq məsələlərinə xüsusi həssaslıqla yanaşmasıdır. Təsəvvüf gözəl əxlaqdır - insanları pis xüsusiyyətlərdən uzaqlaşaraq yaxşı əməllərə yönəlməyə sövq etmək məqsədi güdür. Təsəvvüf, əslində, bütün yaxşı xüsusiyyətləri mənimsəmək və pis əməllərdən uzaqlaşmaqdır:

انمناتبلىبردولايتهشيخكاملولوامتلأتالأرضبالمشايخواربابالولايةوهو
يتمسكبزيلارادتهمغيرأنشيخهردهلايمكنلأحدهماعانتهواخراجهمنورطهالردالاما
شاءللهكمافيالتأويلاتالنجمية) روحالبيان،الجزءالأول،فيسورةالتوبةفيصحيفة

*Əgər bir kimsə murşidi tərəfindən rədd edilərsə, yer üzü şeyxlərlə dolu olsa və o kimsə onların iradələrindən yapışsa, “Təvilatin-Nəcmiyə”də gostərildiyi kimi Allah istəmədikcə onların hec birisinin ona koməyi dəyə bilməz, hec kəs onu rədd uçurumundan xilas edə bilməz (11, s. 497).*

Yaradıcılığında vəhdəti-vücud fəlsəfəsi mühüm yer tutan Seyid Nigari "dərd və eşq şairidir. Təsəvvüfdə dərd insanı kamilləşdirən, onun ruhunu paklaşdıran ən böyük bir vasitədir. Dərd insanda Tanrı əmanətidir. Yalnız həqiqi bir eşqlə sevən insan əsl dərdin nə olduğunu anlayır. Nigaridə də bu baxımdan dərd və eşq atributları daim qoşa işlənir:

*Görüm bidağ bu aləmdə adəm olmasın yarəb,*
*Dağılsın nöh fələk, bimehr aləm olmasın, yarəb!" (8, s. 19).*

Seyid Nigari qəm, kədər çəkməkdən qurtulmaq istəmir. Şair "Cövrdən ikrah eyləməz könlümüz,"– deyir:

*Sönməsin nari-dərunim, nə qədər variyətim,*
*Cigərim olmasın, ey Miri Nigari, bidağ (6, 208).*

Seyid Nigari eşqdən yaranan sevdaya da fərqli yanaşır, onu Allahı dərk etməyin yolu kimi tərənnüm edir. F.Köçərli yazır: "Osmanlı ədiblərindən Əhməd Rüfət əfəndi "Təsvirül-əxlaq" adlı əsərində "sevda" sözünün mənasını şərh etdikdə onu təbiətin pərişan və dağınıq halından mütəvəllid və cənnətə rəqib bir dərüni mərəzə isnad verir. Əgər əqli-cəlim tərəfindən sevdanın müdaxilatü təərrüzatına müdafiə olmasa, sevda insanın kişvəri-dərünini istila edib, salamat qəlbi təhdid və sahibini təhlükəyə salar. Asayişi-ruha hücum edən bu sevda, Əhməd Rüfət əfəndinin bəyanına görə, üç qisimdir: biri ifrati-eşqü məhəbbətdən təvəllüd edir, digəri zərurət və məcburiyyətdən doğub, üçüncüsü ehtiyacdan zühura gəlir. İki axırıncısı biri-birinə rəqibdir. Hacı Mirhəmzə əfəndi burada tövsif qıldığı sevda ifrati-eşqü məhəbbətdən nəşət edən sevdaya işarə isə də, vəli sevda həqiqətdə insanın batini aləminə dəxlü təsərrüf etdikdə qəlbi-səlimə xələl yetirməyi, könlü bulandırmağı və asayişidərunu pozuntu bir hala salmağı vazeh ikən Şeyx Nigari ona başqa sifətlər mənsub qılır. Sevda cin kimi dağıdıcı, xarab və viran edici qüvvə ikən Şeyx Nigari onu "siratimüstəqim", "meraci-bita", "hidayət", "təriqi-Əhmədi-Muxtar" ibarələri ilə tövsif qılır və dili-viranəni məşəqqətsiz əmmar qılır. Və vazehdir ki, bu sevdadan Şeyx Nigarinin məramı yenə məhəbbəti-ilahinin dərəcəsini göstərməkdir" (7, s. 145-146).

Şeyx Nigarinin dini görüşünün əsasında Allaha, Həzrəti-Peyğəmbərə və onun əhli-beytinə sonsuz məhəbbət durur.

لوفتشوا قلبيلألقوابه
سطر انقدخطابلاكاتب
العدلو التوحيدفيجانب
وحباهلبيتفيجانب

*Qəlbimi araşdırsanız gorərsiniz ki,*
*Qəlbimə katib əli dəymədən iki sətir yazılıb.*
*Ədalət və tovhid bir tərəfdə,*
*Əhli-beyt sevgisi bir tərəfdə (11, s. 497).*

Lakin Həzrəti Məhəmmədi (s.ə.s), Həzrəti Əli ilə birlikdə nəqşibəndilik təriqətinin yaradıcısı Bəhaəddin Nəqşibəndini də piri saydığını söyləyir.

*Əlmədəd, üftadəyəm, ya dəstgir,*
*Ya Məhəmməd, ya Əli, ya Nəqşibənd!*

Fars divanına aid əlyazmalardan birində özünü Abduhu Mir Həmzə kimi təqdim edən şair həm də Nəqşibəndiyyə, Qadiriyyə, Suhrəverdiyyə, Kubrəviyyə və Ciştiyyə fəqirlərinin ayağının tozu olduğunu qeyd edir.

نسئلللهالعافيةوالحمد
اضعفالعبادخادمترابااقداماالفقراءالنقشبنديةوالقادريةوالسهروورديةوالكبرويةوالچشتية
السيدالاميرالحمزةالحيدريالباليالحسنيالقرهباغيالبرگشادی.
عبدهميرحمزه

*Allahdan afiyət diləyir və aləmlərin Rəbbinə həmd edirik.*
*Qulların ən zəifi, Nəqşibəndiyyə, Qadiriyyə, Suhrəverdiyyə, Kubrəviyyə və Ciştiyyə fəqirlərinin ayağının tozu,*
*əs-Seyid əl-Əmir əl-Həmzə əl-Heydəri əl-Bali əl-Həsəni əl-Qarabaği əl-Bərguşadi*
*Abduhu Mir Həmzə(11, s. 497).*

N.Məmmədli qeyd edir ki, "Nəqş və nəqqaş sözləri Mövlana Cəlaləddin Rumidə olduğu kimi, Seyid Nigari yaradıcılığında da xaliq və məxluq, Aləmi-Küll və aləmi-cüz münasibətlərini ifadə edir. Nəqş Allah Taalanın xəlq etdiyi gözəlliklər anlamına gəlir. Kamil aşiq nəqşədeyil, Nəqqaşa nəzər etməlidir" (8, s. 15).

Seyid Mir Həmzə Nigarinin mənsub olduğu nəqşbəndi təriqətinin nümayəndələrinin Mövlana Cəlaləddin Rumi yaradıcılığına böyük rəğbət bəslədiklərini qeyd edən N.Məmmədli yazır: "Bəhaüddin Nəqşbəndin xəlifələri olan Məhəmməd Parsa, Yəqubi Çərxi Mövlananı çox sevər, məclislərində onun şeirlərini oxuyardılar. Daha sonra nəqşbəndi şeyxi Murad Molla hətta bir "Darül-Məsnəvi" (Məsnəvi evi) tikdirmiş və orada Məsnəvi əsərinin oxunması, tədrisi və şərhi ilə məşğul olmuşdur. Əyyub Nişançı Nəqşi dərgahının şeyxi Kəşmirli Şeyx Murad da dərgahın kənarında tikilən "Darül-Məsnəvi"də "Məsnəvi" oxutdurardı" (8, s.14). Bütün bu faktlar təriqət ədəbiyyatı ilə bağlı xüsusi məclislərin təşkil olunduğunu bir daha sübut edir. Bu məclislərin coğrafiyası geniş olsa da, Qarabağ mühiti üçün də səciyyəvi olduğunu əks etdirən faktlar mövcuddur: "Seyid Nigarinin şeirləri Amasiya ətrafında, şərqi Anadoluda, Borçalı, Qazax və Qarabağda yaşayan türklər tərəfindən əzbər söylənilir, zikir məclislərində böyük mistik həyəcanla oxunur"(5).

Bütün bunlar nəinki təriqətlə bağlı ədəbi məclisdən, hətta məktəbdən danışmağın mümkünlüyünü göstərir. Zəngin ənənəyə söykənən bu məktəbin bu gün də davam etdirilməsi heç də təsadüfi deyil: "Seyid Nigari sufi, təsəvvüf şairidir. Bu gün də keçmişdə olduğu kimi, Qafqazda, Anadoluda səma məclislərində mövləvi və nəqşibəndilərin ayinlərində, zikrlərində Mövlana Cəlaləddin Rumidən sonra ən çox Seyid Nigarinin insanlara İlahi sevgisi bəxş edən şeirləri oxunur, ifa edilir, rituallarda səslənir" (9).

Görkəmli yazıçı İsmayıl Şıxlının milli tarixi roman janrının kamil nümunələrindən sayılan və XIX əsrdə Azərbaycan reallığını əks etdirən "Dəli Kür" əsərində təriqət məclisində musiqi, ifa və "səma" elementlərini təsvir etməsi də mövləvi və nəqşibənditəriqətləri arasındakı yaxınlığı əks etdirir: "Meyxananı başlamaq olardı. Qonağa nazik bir sini verdilər. O dərhal dikəlib bardaş qurdu. Qalan müridlər də arvadlı-kişili dizi üstə oturdular. Molla Sadıq da diz çökdü. Şahnigar xanım böyük təəccüblə qonağın asta-asta sini çalmasına baxdı. Birdən kişi yaşına uyğun olmayan zil və məlahətli səslə oxudu" (10, s.163).

İsmayıl Şıxlının "Dəli Kür" əsərində Seyid Nigari ilə bağlı faktların verilməsi də diqqətəlayiqdir:Bir neçə il bundan qabaq bu uzunsaqqal müridlərdən biri Göytəpəyə gəlib çıxdı. Üç gün, üç gecə Molla Sadığın evində yeyib-yatdı. Getməzdən əvvəl ona bir kitab verdi. "Bizim mürşidimiz, cəddinə qurban olduğum Seyid Nigarinindir. Oxu öyrən, başqalarını da başa sal, onun müridi ol", - dedi (10, s.157).

Əsərdə ümumiyyətlə sufiliklə, eşq fəlsəfəsi ilə bağlı maraqlı məqamlar öz əksini tapmışdır:

Peyğəmbər nəslindən olan nəcib ailəyə məxsus sirli xüsusiyyətlər barədəolan rəvayətlərdə onların "bütün şanlı peyğəmbərlərin qüdsi təbiətlərini miras almaları", "... zəlalətdə olanları hidayətə, dəvasız dərdliləri səhhət və afiyətə qovuşdurmaları" qeyd olunur: "Bir qüdsi hərəm mahiyyəti kəsb etmiş bu zatın səadətxanəsi hər dərdlinin dərmanına bir dəva mənbəyi

vəzifəsini icra etmişdi. Yəni maddi-mənəvi hər düşkün, biçarə, zəiflər bu əziz həzrətin mübarək hüzurunda kədər və ələmlərindən azad olmuşlar.Bu cümlədən olmaq üzrə borclunun borcu burada ödənir, yetim, kimsəsiz, biçarələr bu xanəgahda firavanlıq və səadətə yetişir, ilan çalan bu dərgaha üz tutar, quduz dalayan, məcnun olan bu qüdsi şəfaxanədə dərdinə dərman taparmış...” (11, s.471).“Dəli Kür” əsərində xalq arasında yayılan bu rəvayətlərdən də bəhs olunur: “Əvvəllər göytəpəlilər müridliyin nə olduğunu bilməzdilər. Elə uzaqdanuzağa qonşu dağ kəndlərindən birində müqəddəs qəbir olduğunu, adamların oraya toplaşıb, ibadət etdiklərini eşidərdilər. Deyilənə görə, o türbəyə müqəddəs bir adam basdırılmışdı. Onun müridləri də vaxtaşırı qəbri ziyarət edir və sonra da meyxana başlayırdılar. Meyxana haqqında çox qəribə şeylər söyləyirdilər: guya müridlər ibadət zamanı qızışır, əllərini közərmiş dəmirə, ya da od kimi qızmış peçə basırlar. Onların nəinki əlləri yanmır, heç istiliyi də hiss etmirlər. Ya da poqquldaya-poqquldaya qaynayan samovarı qucaqlarına alır, şaq-şaq şaqqıldayan çaydan süzüb, birnəfəsə içirlər, yenə heç nə olmur. Çox qəribə, möcüzəli sözlər danışırdılar. Müridlərin cəzb olduğu, ağızları köpüklənərək qəşş etdikləri, saatlarla bu dünyadan köçüb, o dünyada ruhlarla qovuşduqları haqqında rəvayətlər söyləyirdilər. Hər yerə belə bir xəbər yayılmışdı ki, kim türbəyə ziyarətə getsə, ya da oranın bir tikə çörəyini yesə, istədiyi arzuya çatıb, bütün qada-bəladan uzaq olar. Çox adam müridləri əfsanəvi varlıqlar, sirlərlə dolu olan ecazkar və müqəddəs insanlar kimi təsəvvür edirdi” (10, s. 157).

“Dəli Kür” əsərində diqqət çəkən digər məqam müridlər arasında qadınların da olması ilə bağlı faktdır: “Son illər müridlərin dəstəsinə qadınlar da qoşulurdu.158... məclisə gələn müridlərin ardı-arası kəsilmirdi. Kişilərdən sonra əli təsbehli qadınlar da gəldi. Onlar da öz yerlərini tutdular. Bardaş qurub kişilərlə bərabər çay içdilər” (10, s. 159).

“Azərbaycan ədəbiyyatı tarixi” (II cild) kitabında Seyid Nigarinin sadiq müridlərindən Ağa Rəhim ağa Dilbazi, Hacı Məcid Əfəndi, Qazi Mahmud Əfəndi ilə yanaşı, Şahnigar xanım Rəncurun da adı çəkilir (12, s.64). Maraqlıdır ki, İ.Şıxlı əsərdə obrazlardan birini məhz Şahnigar adlandırır: Şahnigar xanım Seyid Nigarinin kitabını Quranla yanaşı qoydu. Gecələr çətinliklə də olsa mollaxanada oxuduğu hərfləri yadına salıb höccələyə-höccələyə şerləri əzbərlədi (10, s.163).

Araşdırmalar Seyid Mirhəmzə Nigari ilə bağlı bəzi faktların hələ xüsusi tədqiqata ehtiyacı olduğunu göstərir. Belə faktlardan biri şairin doğum tarixi ilə bağlıdır. Bəzi mənbələrdə şairin 1795-ci ildə (13), “Türk Ensiklopedisi”, az.wikipedia.org, tarihvebilgi, ayb.net və digər mənbələrdə 1805-ci ildə doğulduğu öz əksini tapmışdır(9). Şairin doğum tarixinin mənbələrdə fərqli şəkildə göstərildiyini yazan Nəzakət Məmmədli bu tarixin əksər mənbələrdə hicri 1212 (miladi 1797) olaraq qeydə alındığını yazır (6,s.4). Bu baxımdan Seyid Mirhəmzə Nigarinin doğum tarixini gostərən sənəd xüsusi əhəmiyyətə malikdir.

Nigari Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı yönəlmiş müridizm azadlıq hərəkatının öncüllərindən olmuş, hətta Rusiya ilə Osmanlı dövləti arasındakı Krım müharibəsi zamanı Osmanlı ordusunda cihada qatılmaq üçün müridləri ilə birlikdə gizlicə Qarsa gələn şair ruslara qarşı vuruşmuşdur(5).Beləliklə, Seyid Mirhəmzə Nigari XIX əsrin ortalarında Qafqazda rus istilasına qarşı meydana gələn cihadın ilk ideya müəlliflərindən biri olmuşdur.Tarixi faktlar bu məsələdə Seyid Mirhəmzə Nigarinin çarizmin Qafqaz siyasətinə - Qafqazda köklü dəyişikliklərə qarşı öz etirazını bildirən, Qafqaz xalqlarının müstəmləkə boyunduruğu altına alınmasına dözə bilməyən Xasay xan Usmiyevlə də (Xan qızı Xurşidbanu Natəvanın həyat yoldaşı – A.H.) eyni mövqeyi bölüşdüyünü göstərir. Xasay xan Usmiyev Qarabağda yaşadığı illərdə Seyid Nigari və müridləri ilə gizli görüşmüşdür.Şuşa qalasında təşkil olunan məclisdə o zamankı Qars mütəsərrifinə“məktub göndərilməsi qərarlaşdırılmış. Qərara əsasən, Osmanlı hökumətilə rus hökuməti arasında hər hansı bir səbəbdən dolayı meydana gələcək ixtilaflı vəziyyətlərdə iki dövlət arasında düşmənçiliyə səbəb olacaq bir hal baş verərsə, Osmanlı ordusunun hücumunun ardınca Qarabağda Şeyx Hacı Həmzə əfəndi, Şəkidə

Əhməd əfəndi, Dağıstanda Xasay xanın dərhal fəaliyyətə keçərək qəfil və ümumi üsyan meydana gətirməyi söz verdikləri bəyan edilirdi (11, s.72).

*Bütün bu tarixi faktlar bir tərəfdən təriqət ədəbiyyatının uzun illər boyu yasaq mövzulardan olmasının səbəblərini açıqlayırsa, digər tərəfdən təsəvvüflə bağlı ideyaların müqəddəs hiss və duyğuları əhatə etdiyini əks etdirir.*

*XIX əsr Qarabağ ədəbi mühitində sırf təriqət yönümlü ədəbiyyatın formalaşması, məhz bu səpkili şeirlər yazan şairlərin yetişməsi ilə yanaşı, digər şairlərin yaradıcılığında da sufizm elementlərinə, təsəvvüf fəlsəfəsi ilə bağlı məqamlara təsadüf olunurdu. Bu istiqamət həm "Məclisi-üns", həm də "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında müşahidə olunurdu.*

## Ədəbiyyat:

1. Göyüşov N. Quran və irfan işığında. Bakı, 2004.
2. Seyid Yəhya Şirvani Bakuvi. "Şəfa əl Əsrar" (Sufiliyin sirləri) Tərtibçi və ön sözün müəllifi: Mehmet Rıhtım. Bakı, "Elm", 2013.
3. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II cild (XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər) Bakı, 1960)
4. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: AMEA Əlyazmalar İnstitutu, 2012.
5. https://news.milli.az/culture/143063.html // "Hər bir aşiq Seyid Həmzə, hər bir dilbər Nigar olmaz".
6. Mir Həmzə Seyid Nigari. Divan. Bakı, "Elm və təhsil", 2010.
7. Köçərli F. "Azərbaycan ədəbiyyatı". II cild, "Elm" nəşriyyatı, 1981.
8. Məmmədli N. Seyid Nigarinin təsəvvüfi görüşləri. III Beynəlxalq Həmzə Nigari Türk Dünyasi Mədəni İrsi Simpoziumu Materialları . Şamaxı, Azərbaycan, 2017. S.13-23.
9. http://zengezur.com/index.php/4-xbrlr/xbrlr/172-ruhu-qaraba-da-cismi-amasyada //Ruhu Qarabağda, cismi Amasyada
10. Şıxlı İsmayıl. Dəli Kür// İsmayil Şıxlı. Seçilmiş əsərləri. Iki cilddə. II cild. "ŞƏRQ-QƏRB" Bakı-2005.
11. Mirzadə Mustafa Fəxrəddin Ağabali. Hümayi- ərş. Qarabağlı Şeyx Mir Həmzə Nigarinin Mənaqibnaməsi. Bakı, "NURLAR", 2015.
12. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. II cild (XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər) Bakı, 1960
13. http://karabakhmedia.az/lacinyurdu/34-seyd-ngar-qarabag.html

**Айтен Гаджиева**

## О религиозных меджлисах в Азербайджанской литературной среде XIX века

### *РЕЗЮМЕ*

В Азербайджанской литературе XIX века прослеживается несколько философских взглядов, в частности, привлекают внимание новые веяния суфизма. В Карабахской литературной среде. XIX века наряду с Меджлисиюнс, Меджлисиферамушах, существовала оставшаяся без внимания и исследования религиозный меджлис. В действующей под названием Негшбендилик литературной среде творил один из ярчайших представителей литературы, XIX века, внесший большой вклад в неё Мир Хамза Сеид Нигари. Являясь сторонником суфизма в своём творчестве Нигари ярко отобразил это в своих творениях

**Ayten Hajiyeva**

**Sect meetings in the 19th century Azerbaijani literary environment**

***SUMMARY***

The obtaining of a new breath of philosophical views in the 19th century Azerbaijani philosophy, as well as the main philosophical problems of Sufism, is one of the most striking moments.

In the 19th century in Karabakh literary environment, besides the "Majlisi-uns", "Majlisi-farmushan", there was also a sect meeting that has been left out of focus and research. The most prominent representative of this literary institution named “Naqshbandilik”, was Mir Hamza Seyid Nigari, who was deeply traced in the literature of XIX century with hisliterary heritage. Playing an important role of the philosophy of Sufism in his creativity, Nigarihas reflected his scientific views in his poetic samples.

*Redaksiyaya daxil olma tarixi: 10.09.2018*
*Çapa qəbul olunma tarixi: 27.11.2018*

Filologiya üzrə elmlər doktoru, professor **Raqub Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.